# Yardımlı: gənclər dövlət qayğısından ruhlanırlar




***Gənclər sabahımızın sahibləridir. Ölkəmizin gələcəyinə qoyulan kapital məhz gəncliyi qorumaq, inkişaf etdirmək, gənclərin ictimai həyata fəal inteqrasiyasını sürətləndirmək üçündür. Yardımlı rayonunun da gəncləri dövlət qayğısından ruhlanaraq fəallıqlarını artırırlar. İyirmi yaşında ikən dövlətçiliyimizin qorunması uğrunda mübarizədə canından keçmiş Azərbaycanın Milli Qəhrəmanı Bəhruz Mansurovu, Qarabağda şəhid olmuş igid soydaşlarımızı özlərinin idealı sayan dağlar diyarının gəncləri hər sahədə nümunəvi olmağa çalışırlar. Onların sayı ilin əvvəlinə olan məlumata görə 20 mindən artıqdır, başqa sözlə desək, rayon əhalisinin üçdə-birini təşkil edirlər. Təhsil, idman, mədəniyyət sahəsində, ictimai işlərdə uğurları ilə fərqlənirlər.***

"Azərbaycan Gəncliyi 2017–2021-ci illərdə" Dövlət Proqramından irəli gələn müddəalar rayonda daim diqqətdə saxlanır. İctimai-siyasi həyatında fəallığı ilə seçilən gənclərə etimad göstərilir və onlar dövlət idarə və təşkilatlarında məsul işlərə irəli çəkilirlər. Bütün bunlar gənclərdə qurub-yaratmaq əzmini artırır. Ötən il ərzində rayon gənclər və idman idarəsi fəaliyyətini günün tələbləri səviyyəsində quraraq gənclər sahəsi üzrə 63, idman sahəsi üzrə isə 31 tədbir keçirib. Ümumilikdə bu tədbirlərə 5308 yeniyetmə və gənc qatılıb. Demək olar ki, hər həftəyə iki yaddaqalan tədbir düşüb.

Dövlətimizin başçısı İlham Əliyevin könüllülük fəaliyyətinin əhatəsini genişləndirməklə bağlı tapşırığı gənclər üçün böyük stimuldur. Yardımlıda bütün dövlət strukturlarında könüllü gənclər fəaliyyət göstərirlər. Onlar rayon icra hakimiyyətində də zəruri təcrübə və səriştə qazanırlar. Müvafiq sertifikat alan könüllülərin gələcək əmək fəaliyyəti dövründə, bu təcrübələr, şübhəsiz, çox böyük əhəmiyyət daşıyacaq.

Məktəb kollektivlərinin, gənclərin vaxtaşırı Yardımlı şəhərindəki Heydər Əliyev Mərkəzinə ekskursiyalarının təşkili ənənə halını alıb. Onlar burada ulu öndərin örnək həyat və fəaliyyəti ilə yaxından tanış olurlar. Digər bir ənənə üzrə isə hər il tələbə adını qazanmış Yardımlı məktəblərinin məzunları ilə rayon rəhbərliyinin görüşü keçirilir. Ötən il də istisna təşkil etməyib və 500-dən yuxarı bal toplayaraq ali məktəblərə qəbul olunan tələbələr rayon icra hakimiyyəti başçısının fəxri fərmanları ilə təltif olunublar. Belə bir inam ifadə edilib ki, məzunların çoxu diplom aldıqdan sonra bilikli mütəxəssis kimi rayona qayıdıb onun tərəqqisi naminə çalışacaq.

"Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində noyabr ayında Qəbələ–Şəki–Zaqatala istiqamətində tur-aksiyada iştirak edəcək məktəblilərin yolasalma mərasimində bildirilib ki, Prezident İlham Əliyevin gənclərə diqqət və qayğısı nəticəsində qəbul edilmiş müxtəlif dövlət proqramlarının icrası ilə əlaqədar uşaqların, yeniyetmə və gənclərin hərtərəfli inkişafına xidmət edən layihələr həyata keçirilir, respublikanın müxtəlif bölgələrinə belə səfərlər təşkil olunur ki, böyüməkdə olan nəslin vətənpərvərlik hissi daha da güclənsin.

Yola salınan qrupa rayonun orta məktəblərində öz təhsili, nümunəviliyi, ictimai həyatda fəallığı ilə fərqlənən şagirdlər daxil ediliblər.

Ötən ilin "Nəsimi ili" elan olunması ilə əlaqədar rayonda çoxsaylı tədbirlər həyata keçirilib. Təhsil şöbəsi, regional mədəniyyət idarəsi ilə birlikdə təşkil olunan bu tədbirlərin mütəfəkkir şairin ədəbi irsinin gənclərə öyrədilməsi baxımından böyük önəmi olub.

Yardımlı gənclərinin idman sahəsində də uğurları az deyil. Qürur doğuran faktdır ki, gənclər fiziki sağlamlığı "məsuliyyətli vətəndaşlıq – uğurlu dövlət" birliyinin vacib hissəsi kimi dəyərləndirirlər.

Azərbaycan Respublikasının Fəxri Bədən tərbiyəsi və İdman işçisi, Yardımlı rayon Kontakt Karate məktəbinin məşqçi müəllimi Nazim Rzayevin yetirməsi Firuzan Heydərlinin qaydasız döyüş - Free Fight İng (MMA) növü üzrə beynəlxalq yarışın qalibi olması hər kəsi sevindirib.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Bakı İdman Sarayında keçirilmiş budo idman növü üzrə beynəlxalq turnirdə 65 kiloqram çəki dərəcəsində İdris Mirzəzadə bütün rəqiblərinə qalib gələrək birinci yerə layiq görülüb və öz qələbəsi ilə Azərbaycan milli komandasının qızıl medal qazanmasına layiqli töhfəsini verib. Aprel ayının sonlarında Bakı şəhərində keçirilən kikboksinq idman növü üzrə katedlər arasında ölkə birinciliyi və böyüklər arasında ölkə çempionatında rayonu təmsil edən Şamil Əbilov respublika üçüncüsü olub. Ölkəmizin paytaxtında keçirilən Beynəlxalq Qara kəmər imtahanında Yardımlı rayon Taekvando məktəbinin idmançılarından 1 nəfəri II dan, 8 nəfəri I dan qara kəmərə layiq görülüb. Komanda yüksək nəticə qazandığı üçün Dünya Taekvando Federasiyası tərəfindən qızıl medal və pulla mükafatlandırılıb.

İdmanın kütləviliyinin artırılmasında zəka yarışı sayılan şahmatın rolu böyükdür. Bu növ üzrə məktəblilərin respublika çempionatının Salyan şəhərində keçirilən zona yarışında Yardımlı şəhər 1 saylı tam orta məktəbinin komandası 2-ci yerə layiq görülüb və respublika çempionatının final mərhələsinə vəsiqə qazanıb. Yardımlı rayon Uşaq Gənclər Şahmat İdman məktəbinin məşqçi-müəllimi Elşən Məmişov Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin müvafiq qərarı ilə respublika dərəcəli hakim adına layiq görülüb.

Bir qayda olaraq, beynəlxalq, respublika və zona yarışlarında qələbə qazanan Yardımlı idmançıları rayon icra hakimiyyətinin başçısı Ayaz Əsgərov tərəfindən qəbul edilir və mükafatlandırılır. Bu isə idmançılarda ruh yüksəkliyi yaradır, onlara əlavə stimul verir.

Rayonda "5 Mart – Bədən Tərbiyəsi və İdman Günü" təmtəraqla qeyd edilib. İdmanın inkişafında xidmətlərinə görə idman ictimaiyyəti nümayəndələri Yardımlı Rayon Gənclər və İdman İdarəsinin təsis etdiyi diplom və hədiyyələrlə təltif olunublar.

Dağlar diyarının gəncləri ötən ilin fərəhli yekunu kimi, Prezident İlham Əliyevin dekabrın 3-də imzaladığı sərəncamla burada inşa olunan Olimpiya İdman Kompleksinin tikintisinin başa çatdırılması üçün zəruri məbləğin ayrılmasını böyük sevinclə qarşılayıblar.

Yardımlı Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə "9 Noyabr – Dövlət Bayrağı Günü"nə həsr olunmuş "İradənlə qalib gəl!" flaşmobu – Bayraq Festivalı hər kəsə unudulmaz təsir bağışlayıb. Bu münasibətlə silsilə tədbirlər keçirilib. Gənclərin yürüşü olub, açıq mikrofon formatında müstəqil Azərbaycanın rəmzi olan üçrəngli dövlət bayrağını tərənnüm edən vətənpərvərlik mahnıları ifa edilib.

Nəhayət, dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərini qeyd etmək lazımdır. Həmin ərəfədə Yardımlı Rayon Mədəniyyət Mərkəzində gənclər və idman idarəsi tərəfindən ilk dəfə səs verəcək gənclər üçün seminar keçirilib, bələdiyyə üzvlüyünə namizədliklərini irəli sürən gənclər təşviqat kampaniyası zamanı lazımınca dəstəklənib. Görülən işlərin nəticəsidir ki, bələdiyyə seçkilərində qələbə qazanan namizədlərin əksəriyyəti məhz gənclər olub.

Yardımlı gəncləri yeni ildə uğurlarını daha da artırmaq əzmindədirlər.

**Əli NƏCƏFXANLI,**
**"Xalq qəzeti"nin**
**bölgə müxbiri**

Xalq qəzeti 2020.- 12 yanvar.- S.7.